BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# AZƏRBAYCAN MƏTBUATININ İNKİŞAFINDA «YENİ NƏSİL» AZƏRBAYCAN JURNALİSTLƏR BİRLİYİNİN ROLU

**Ş.S.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***

1875-ci ildə «Əkinçi» qəzeti ilə Milli mətbuatımızın təməlini qoymuş Həsən bəy Zərdabi hələ o dövrdə yazırdı: «Dövri mətbuat – cəmiyyətin tribunasıdır. Onun borcudur ki, işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq nikü bədindən xəbərdar olub, onun əlacının dalınca olsun» (3).

Zəngin tarixi olan Azərbaycan mətbuatının əsas vəzifəsi təkcə insanları informasiya ilə təmin etmək deyil, eyni zamanda cəmiyyətdə ictimai rəyi formalaşdırmaqdan ibarətdir. Keçmiş SSRİ məkanında sovet ideologiyasının təsiri altında formalaşan mətbuatımız 1990-cı illərdən müstəqil, azad, Qərb dəyərlərinə önəm verən bir sahə kimi inkişaf etməkdədir. Nəzərə almaq lazımdır ki, indii zaman çox dəyişib. Multimedia dövrünün öz tələbləri, öz dəyərləri yaranmaqdadır. Dünya təcrübəsinə inteqrasiya çox sürətlə gedir. Bəzən bir ilin, hətta bir ayın hadisələrindən geri qalmaq, yeninin tətbiqində ləngimək bütöv bir millətin gerilik əlamətinə yeni faktlar əlavə edir. Kütləvi informasiya vasitələri indi dünya təcrübəsini qavramaq və təsdiq etmək kimi önəmli bir işdə geniş fəaliyyət göstərir. Heç də təsadüfi deyil ki, yeni dünyanın yeni dəyərlərinin anlaşılmasında və qiymətləndirilməsində jurnalistikanın rolunu yaxşı başa düşən demokratik institutlar postsovet məkanında KİV-in inkişafına xüsusi qayğı ilə yanaşırlar (4, s.12).

Azərbaycan müstəqillik əldə etdikdən dərhal sonra «Kütləvi informasiya vasitələri» haqqında Qanun qəbul etmişdir. Çünki demokratiyanın inkişafına mənfi təsir göstərən əsas amillərdən biri məlumat azadlığının məhdudlaşdırılması problemidir. Azərbaycanın KİV qanunvericiliyi mətbuatda senzuranı qadağan edir.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində deyilir: «1.Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır; 2. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində o cümlədən, mətbuatda dövlət senzurası qadağandır (1). Bu gün jurnalistlərimizin əsas vəzifəsi ictimaiyyətə həqiqəti olduğu kimi çatdırmaqdır. Hər bir jurnalist təqdim etdiyi informasiyanın obyektivliyi, dəqiq və doğru olması üçün məsuliyyət daşıyır.

Azərbaycanın ilk müstəqillik illərində ictimai-siyasi həyatın hər sahəsində olduğu kimi, jurnalistikada da bir sıra dəyişikliklər baş vermişdi. Bu da özünü əsas etibarilə jurnalistlərin fikir və mülahizələrini çəkinmədən, ehtiyat etmədən, bildirməyə cəsarət etməsidir. 1990-cı illərədək SSRİ-nin başqa respublikalarında olduğu kimi, Azərbaycanda da

müstəqil mətbuat orqanları az idi və buna görə də, jurnalistlər öz missiyalarını lazımınca yerinə yetirə bilmirdilər. Bəzi qəzet və jurnal səhifələrində real gerçəklik bəzən özünün düzgün əksini tapmır. Təsadüfi deyildir ki, «Beynəlxalq jurnalist təşkilatları» kitabında beynəlxalq jurnalist hərəkatının əsas inkişaf və fəaliyyət istiqamətləri məsələsinə toxunan H.Vəliyev qeyd edir ki, beynəlxalq jurnalist hərəkatında diqqəti cəlb edən bu cəhətlər dünya ölkələrinin milli qanunvericiliyində düzəlişlər aparılmasını, qlobal informasiya məkanı şəraitində KİV-in fəaliyyəti üçün şərait yaradılmasını tələb edir. Bununla bağlı, ölkəmizdə KİV-in tənzimlənməsi məsələsində bir sıra qanunvericilik aktları qəbul olunmuşdur. Bu sənədlərin hamısında dünyanın beynəlxalq təşkilatlarının, o cümlədən beynəlxalq jurnalist təşkilatlarının KİV-lə bağlı fikirləri, söz azadlığı və informasiya təhlükəsizliyinin təmin olunması barədə tələblər nəzərə alınmışdır (5, s.11). Bu baxımdan, Azərbaycanda qeyri–hökumət jurnalist təşkilatlarının rolu və əhəmiyyəti durmadan artır. Bu sırada «Yeni nəsil» Jurnalistlər Birliyinin fəaliyyəti daha maraqlıdır.

Hazırda respublikamızda müstəqil, qeyri-hökumət təşkilatı olan «Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyinin əsas fəaliyyəti müstəqil jurnalistikanın formalaşmasına yönəlmişdir. Azad və müstəqil mətbuatın inkişafına kömək etmək, söz azadlığını təmin etmək, jurnalistlərin peşə sənətkarlığını artırmaq, mətbuatın özünütənzimləmə mexanizmini gücləndirmək məqsədilə təşkilat 1995-ci ilin may ayında təsis olunmuşdur.

«Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyinin strukturu dörd Mərkəzdən ibarətdir: Tədqiqat Mərkəzi, Təhsil Mərkəzi, Hüquqi Mərkəzi və Nəşriyyat-poliqrafiya resurs Mərkəzi. Burada, həmçinin mərkəzlərin fəaliyyət istiqamətləri və funksiyaları da şərh edilir.

Azərbaycan mətbuatının indiki vəziyyətini izləyib, təhlil edən **Tədqiqat Mərkəzi** müxtəlif mövzularda sorğular keçirir, mətbuatımızın inkişaf perspektivlərini öyrənir və araşdırır. Mərkəzin informasiya bankında Azərbaycan mətbuatının bu gününü və keçmişini işıqlandıran materiallar saxlanılır. Mərkəz Beynəlxalq jurnalistləri Müdafiə Komitəsinin, Avropa Media institutunun, İnsan haqları üzrə Beynəlxalq Liqanın, ABŞ universitetlərinin və bir sıra xarici və yerli informasiya vasitələrinin sifarişi ilə çoxlu sayda monitorinqlər, sorğular keçirir.

**Təhsil Mərkəzi** jurnalistlərin peşə hazırlığı kursları, seminarlar, konfranslar təşkil edir. Təhsil Mərkəzinin keçirdiyi tədbirlər sayəsində jurnalistlərimiz xarici ölkələrdə treninqlərdə iştirakları ilə mətbuatımızı təmsil etmişlər. Bu Mərkəzdə nəşriyyat işi sahəsində çalışan jurnalistlərimiz üçün xüsusi tədris proqramları hazırlanmışdır.

**Hüquq Mərkəzi** müxtəlif təzyiqlərə məruz qalan jurnalistlərin müdafiəsini təşkil edir, qanun və kodeks layihələri hazırlayır. Bu günə qədər «İnformasiya azadlığı haqqında», «Qrantlar haqqında», «Kütləvi informasiya vasitələrinə dövlət yardımı haqqında», «Radio və televiziya yayımı haqqında» Qanun layihələrinin hazırlanmasında yaxından iştirak etmişdir.

«Qrantlar haqqında» Qanun 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir.

Hüquq Mərkəzi Azərbaycanda senzuranın ləğvi, tele-radio təşkilatlarına tətbiq olunan lisenziya qaydalarının dəyişdirilməsi uğrunda daim mübarizə aparmışdır. Mərkəz Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki vəziyyəti araşdıraraq yol verilən qanun pozuntuları barədə

hesabatlar hazırlamışdır.

«Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyinin Hüquq Mərkəzi daha çox özünütənzimləmə mexanizminin yaradılması işi ilə məşğul olaraq öz fəaliyyət istiqamətini dəyişmişdir. Hakimiyyət orqanları tərəfindən təzyiqlərə məruz qalan jurnalistlərin hüquqlarının bərpa olunması məqsədilə mətbuat azadlığını məhdudlaşdıran normaların qanunvericilik aktlarından çıxarılması ilə əlaqədar bir sıra tədbirlər keçirmişdir. Bu tədbirlərin əsasında müstəqillik illərində jurnalistikanın inkişafı sahəsində atılan addımlar əksini tapır.

Mərkəzin hazırladığı Azərbaycan jurnalistlərinin peşə etikası kodeksi Azərbaycan jurnalistlərinin I qurultayında qəbul edilmişdir. Nəşriyyat-poliqrafiya Resurs Mərkəzi 1999-cu ildə yaradılmışdır. Özünün poliqrafiya və müasir nəşriyyat avadanlığı olan Mərkəz qeyri-hökumət təşkilatlarına nəşriyyat-poliqrafiya xidməti göstərir. «Mətbuatda reklam», «Jurnalist etikası», «Azərbaycanda nəşriyyat işi», «Hamının qarşısında bəyan edirik», «Qarabağ probleminin həlli perspektivləri KİV güzgüsündə», «Azərbaycanda söz və mətbuat azadlığı sahəsində vəziyyət» və s. kitablar məhz bu Mərkəz tərəfindən nəşr olunmuşdur. Bunlardan başqa, Birliyin Nəşriyyat-poliqrafiya Mərkəzi qeyri-hökumət təşkilatları və fondlar üçün 220-dən artıq müxtəlif səpkili kitablar – dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar nəşr etmişdir.

«Yeni nəsil» Jurnalistlər Birliyi müxtəlif mövzuları əhatə edən bir sıra dəyərli sənədli filmlər istehsal etmişdir. Onlardan jurnalist hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən QHT barədə «RUH» jurnalistlərin müdafiəçisidir», H.B.Zərdabi haqqında «Əkinçi», Azərbaycan jurnalistlərinin Qarabağa səfərinə dair «Qarabağ dəftəri», müasir Azərbaycan jurnalistikasının yaradıcılarından biri Nəcəf Nəcəfovun həyatı barədə «Nəcəf Nəcəfov» və digər filmləri göstərə bilərik. Bu filmlər aktual mövzuları ilə yetişməkdə olan gənc nəslin tərbiyəsində müsbət rollardan birini oynayır.

Bütün bunlarla yanaşı, 1997-ci ildə «Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyi jurnalistləri və ən yaxşı kütləvi informasiya vasitələrini təltif etmək üçün «Media açarı» mükafatını təsis etmişdir. Bu mükafat «Ən yaxşı telekanal», «İlin ən yaxşı qəzeti», «İlin jurnalı», «İlin jurnalisti» və s. nominasiyalar üzrə media nümayəndələrinə verilmişdir.

2002-ci ildən təsisçiliyə daha iki jurnalist təşkilatı – «Ruh» Jurnalistləri Müdafiə Komitəsi və Azərbaycan Jurnalistlər Konfederasiyası daxil olmuşdur. Qurum jurnalistləri mükafatlandırma müsabiqələri keçirir. Bu gün Azərbaycan Mətbuat Şurası ilə birlikdə «Yeni nəsil» Jurnalistlər Birliyi mükafatın əsasnaməsinə müxtəlif dəyişikliklər edərək, publisistika, reportaj, jurnalist araşdırması, media sahəsində araşdırma və fotoillüstrasiya üzrə beş nominasiya müəyyənləşdirmişdir. Birinci yeri tutanlara «Media açarı» prizi, diplom və pul mükafatı, ikinci və üçüncü yeri tutanlara isə diplom və pul mükafatları təqdim edilir.

«Avrasiya» fondunun, «Azadlıq», «Ayna-zerkalo» qəzetlərinin, «525-ci qəzet»in, «Xalq qəzeti»nin maliyyə yardımı və iştirakı ilə «Yeni nəsil» Bakı mətbuat klubunun yaradılması layihəsini həyata keçirmişdir.

«ABŞ Milli Demokratiya Fondu», ABŞ, İngiltərə, Türkiyə və Kanadanın Azərbaycandakı səfirlikləri, Avropa Media İnstitutu və bir sıra başqa informasiya şirkətləri ilə əməkdaşlıq edən «Yeni nəsil» Azər-

baycan Jurnalistlər Birliyi Azərbaycan jurnalistikasının inkişafı üçün onların imkanlarından mümkün qədər istifadə etməyə çalışır.

«Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyi mətbuatın dilinin saflığı, respublikada baş verən proseslər barədə doğru-düzgün məlumatlar verilməsi, jurnalist etikasına riayət edilməsi, jurnalistin yazı və nitq mədəniyyətinin yüksək olması sahəsində müxtəlif tədbirlər həyata keçirir. «Deməli, jurnalistin nitq mədəniyyətinin birinci şərti, müəllif fikrinin real gerçəkliyə (fakta) və seçilmiş ifadə vasitələrinin (sözlərin, illüstrasiyaların, tərtibat elementlərinin, səs effektlərinin, görünüşlərin və s.) müəllif fikrinə, uyğunluğuna nail olmaqdır» (2).

«Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyi hazırda Azərbaycanda Media İnstitutu yaratmaq, Mətbuat Şurasının formalaşmasına təkan vermək, mətbuatın inkişafına kömək etmək üçün bir çox layihələr üzərində işləyir.

2008-ci ildə ABŞ İnkişaf Agentliyinin maliyyə yardımı ilə «İslam və demokratiya» proqramı, COUNTERPART INTERNATIONAL «İçərişəhəri qoruyaq» proqramlarını həyata keçirəcəkdir. Tarixi şəhərlərin qorunması haqqında Qanun layihəsinin hazırlanması, İçərişəhərin problemlərinin mətbuatda işıqlandırılması, kitab nəşri, mətbuat konfranslarının keçirilməsi, dövlət orqanlarına təkliflərin verilməsi, İslam və müasirlik mövzusunda tele- və radioproqramlarının hazırlanması, dəyirmi masalar keçirilməsi, jurnalistlərə qrantların verilməsi və s. birliyin qarşısında duran əsas məqsədlərdəndir.

Bundan başqa, «Yeni nəsil» Azərbaycan Jurnalistlər Birliyi vasitəsilə Avropa Şurası Azərbaycanda «Kütləvi informasiya vasitələrinin tənzimlənməsi və özünütənzimləmə» mövzusunda iki illik yeni layihə reallaşdırır.

Bu gün Azərbaycan torpaqlarının 20 %-dən çoxu Ermənistan tərəfindən işğala məruz qalmışdır. İşğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqınların ata-baba yerlərinə qaytarılması Birliyi ciddi narahat edən əsas məsələlərdəndir. Bu yönümdə Birlik jurnalistlərin iştirakı ilə «Xalq diplomatiyası» aksiyasını həyata keçirir ki, bu da problemin müsbət həllində addım kimi qiymətləndirilə bilər.

## QEYDLƏR


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Əhmədli N. «Jurnalistin nitq mədəniyyəti». Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2005.
3. «Əkinçi» qəzeti, 1876-cı il, 14 aprel, № 7.
4. Məmmədli C. Jurnalistikanın müasir inkişaf meylləri. Bakı: «Elm» nəşriyyatı, 2006.
5. Vəliyev H. Beynəlxalq jurnalist təşkilatları. Bakı: 2005.

## РОЛЬ ОБЪЕДИНЕНИЯ АЗЕРБАЙДЖАНСКИХ ЖУРНАЛИСТОВ «ЙЕНИ НАСИЛ» В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОЙ ПРЕССЫ

**Ш.С.МАМЕДОВА**

**РЕЗЮМЕ**

В статье анализируется роль «Йени насил», основное внимание уделяется его структуре, которая состоит из четырех Центров: Центр исследования, Центр образования, Центр права и Центр издательско-полиграфических ресурсов и взаимосвязи этих центров с зарубежными информационными кампаниями.

## THE ROLE OF UNIFICATION OF THE AZERBAIJANIAN JOURNALISTS OF "YENIH NASIL" IN DEVELOPMENT OF AZERBAIJANIAN PRESS

**Sh.S.MAMMADOVA**

**SUMMARY**

Here is being analyzed the role of "Yenih nasil" and main attention is paid to its structure, which is consisting of four centers; the centre of the research: the centre of education, the centre, of the law and the centre of publication-poligraphic resources and the interrelation of these centres with the foreign informational companies.